

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 20 (21.430)

2 fevral 2016-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Birləşmiş Ərəb Əmirliklərinə rəsmi səfərə gedib.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Abu Dabinin Prezident hava limanında dövlətimizin başçısını Abu Dabinin Vəliəhdi, Birləşmiş Ərəb Əmirliklərinin Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini Şeyx Məhəmməd Bin Zayed Əl Nəhyan və digər rəsmi şəxslər qarşılayıblar.

* * *

Fevralın 1-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Abu Dabinin Vəliəhdi, Birləşmiş Ərəb Əmirliklərinin Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ilə geniş tərkibdə görüşü olub.

* * *

Birləşmiş Ərəb Əmirliklərində rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Abu Dabidə Şeyx Zayed məscidi kompleksini ziyarət edib.

## "Rəşadətli əməyə görə" nişanı ilə təltif haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında məhkəmə hakimiyyəti orqanlarında səmərəli fəaliyyətlərinə görə:

Abdullayev Mahmud Vaqif oğlu

Əsgərov Elnar Muxtar oğlu – **"Rəşadətli əməyə görə"** nişanı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 1 fevral 2016-cı il*

## Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının şura iclası keçirilib



***İclasda görülmüş işlərdən və qarşıda duran vəzifələrdən geniş söhbət açılıb.***

Tədbiri Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı İsa Məmmədov giriş sözü ilə açaraq hesabat məruzəsi ilə çıxış edib.

Qeyd olunub ki, ötən il Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatında 6 şura yığıncağı, İdarə Heyətinin 12 iclası olub, partiya fəalları ilə 6 yığıncaq keçirilib. Yığıncaqlarda Yeni Azərbaycan Partiyasının V Qurultayının və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının V Konfransının qərarlarının yerinə yetirilməsi vəziyyəti diqqət mərkəzində saxlanılıb. Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə keçirilmiş seçkilərlə bağlı məsələlər də müzakirə olunub, müvafiq qərarlar qəbul edilib.

Bildirilib ki, təşkilatda partiya sıralarının genişləndirilməsi üçün məqsədyönlü tədbirlər həyata keçirilib. 2015-ci ildə rayondakı 112 ilk partiya təşkilatlarından hər birində partiya sıralarına yeni üzvlər qəbul olunub. Ümumi sayı 122 nəfər olan yeni üzvlərin 88 nəfəri gənclər, 75-i isə qadınlardır. Təşkilatın üzvlərinin ümumi sayı 6 min 675 nəfərdir. Bunlardan 2 min 744 nəfərini qadınlar, 3 min 557 nəfərini isə gənclər təşkil edir.

Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi və Qadınlar Şurası tərtib edilmiş iş planına əsasən fəaliyyət göstərərək yeni üzvlərin partiya sıralarına cəlb edilmələri üçün təbliğat işlərini davam etdiriblər.

Bildirilib ki, rayonda aparılan quruculuq işlərində Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının üzvləri də yaxından iştirak ediblər.

İsa Məmmədov vurğulayıb ki, Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının üzvləri bundan sonra da öz işini ulu öndər Heydər Əliyevin ideyalarına və siyasi kursuna uyğun quracaq, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin ətrafında daha sıx birləşəcək, ölkəmizin inkişafı, əhalinin rifahı naminə həyata keçirilən məqsədyönlü işlərdə daim ön sıralarda olacaqlar.

Şura iclasında Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının Qadınlar Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Turan Məmmədli, təşkilatın şura üzvləri Elnur Abbasov və Sədaqət Mahmudov çıxış ediblər.

**Xəbərlər şöbəsi**

## Muzeylərlə tanışlıq davam etdirilir



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 2014-cü il 19 dekabr tarixli "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncamından irəli gələn vəzifələri yerinə yetirmək məqsədilə muxtar respublikada mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, müxtəlif idarə, müəssisə və təşkilatların əməkdaşları muzeylərə gedir, tariximizi, mədəniyyətimizi, milli dəyərlərimizi, görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətini özündə əks etdirən eksponatlarla tanış olurlar.

Yanvarın 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının kollektivi, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədri yanında Gənclər Fondunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin "Naxçıvanşünaslıq" Mərkəzinin əməkdaşları Heydər Əliyev Muzeyində olmuşlar.

Məlumat verilmişdir ki, muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1999-cu il 18 fevral tarixli Sərəncamı ilə yaradılmış, 10 may 1999-cu ildə fəaliyyətə başlamışdır. Ümummilli liderimiz Heydər Əliyev 1999-cu il oktyabr ayının 13-də muxtar respublikaya səfəri zamanı muzeyə gələrək muzeyin ekspozisiyası ilə tanış olmuşdur. Ulu öndərin muzeyi ziyarəti zamanı çəkilmiş tarixi fotolar bu gün muzeyin ekspozisiyasında nümayiş etdirilir. Hazırda muzeydə 4588 eksponat vardır. Muzeydə nümayiş etdirilən eksponatlar ümummilli liderimiz Heydər Əliyevin ictimai-siyasi fəaliyyətini, keçdiyi şərəfli həyat yolunu özündə əks etdirən kitab, qəzet və jurnallardan, 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı və Ali Məclisin Sədri kimi işləyib hazırladığı, qəbul etdiyi tarixi qərar və sərəncamlardan, imzalanmış protokol və müqavilələrdən, məktub və teleqramlardan, istifadə etdiyi xatirə əşyalarından, ulu öndərin şərəfinə toxunmuş xalçalardan, çəkilmiş portretlərdən, tarixi fotolardan və sənədli filmlərdən ibarətdir.

Həmin gün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin kollektivi də Heydər Əliyev Muzeyini ziyarət etmişdir.

**"Şərq qapısı"**

## "Elektron təhsilin təşkili və innovasiyalar" mövzusunda seminar-müşavirə



***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində "Elektron təhsilin təşkili və innovasiyalar" mövzusunda seminar-müşavirə keçirilib.***

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyev bildirib ki, müasir dövrdə qarşıda duran vəzifələrdən biri təhsildə müasir texnologiyaların imkanlarından tam istifadə olunması və elektron təhsilin inkişaf etdirilməsidir. Belə ki, təhsildə innovativ nəticələrin əldə olunması gələcəkdə cəmiyyət həyatının bütün sahələrində hərtərəfli inkişaf üçün cığırlar açan mühüm nailiyyətlərdəndir.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamı qarşıya yeni vəzifələr qoyub. Sərəncamdan irəli gələn vəzifələrin icrası istiqamətində Azərbaycanın tarixi, mədəniyyəti ilə bağlı fənlərin tədrisi prosesində milli-mənəvi dəyərlərimizi özündə əks etdirən muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqələrin təşkili həyata keçirilir. Belə ki, muxtar respublikada muzeylərlə 200-dən çox məktəbin virtual əlaqəsi yaradılıb. Şagirdlərimizin milli-mənəvi irsimizə aid biliklərinin artırılmasına xidmət edən bu işlər tədris ili boyu davam etdirilir.

Bildirilib ki, ümumtəhsil məktəblərində 600-dən çox elektron lövhə quraşdırılıb. Təhsil müəssisələrinə 3800-dən çox kompüter verilib ki, onların da 86 faizi internet şəbəkəsinə qoşulub. Eyni zamanda ümumtəhsil məktəblərində təhsil alan əlaçı şagirdlərdən 932 nəfərinə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən kompüter hədiyyə olunub. Muxtar respublikada fəaliyyət göstərən şahmat məktəbləri 77 müasir kompüter və 9 elektron lövhə ilə təchiz edilib. Bununla yanaşı, şahmat məktəblərinə 19, sertifikat almış müəllimlərin tədris apardığı ümumtəhsil məktəblərinin elektron lövhəli siniflərində istifadə üçün 93 olmaqla, cəmi 112 kompüter dəsti verilib. Ümumtəhsil məktəblərində elektron tədris mühitinin yaradılması məqsədilə məktəb kitabxanaları şahmatın tədrisi üçün 325, digər fənlərin tədrisi üçün isə 2140 ədəd elektron tədris vəsaitləri ilə təmin olunub.

Sonra Naxçıvan Muxtar Respublikasının İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzinin direktoru Vüqar Rəsulovun "Distant təhsil və yeni texnologiyalar", Ordubad Rayon Təhsil Şöbəsinin informasiya-kommunikasiya texnologiyaları üzrə aparıcı məsləhətçisi Elşən Babayevin "Təhsildə yeni metodlar", Culfa Rayon Təhsil Şöbəsinin baş məsləhətçisi Ruslan Nağıyevin "Culfa rayonunda elektron təhsilin təşkili", Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin informasiya və kommunikasiya texnologiyaları üzrə məsləhətçisi Elşən Qəbulovun "Ümumtəhsil məktəblərində İKT-nin tətbiqi ilə bağlı qarşıya çıxan problemlər", Təhsilin idarə olunması məlumat sistemləri sektorunun aparıcı məsləhətçisi Pənah İsmayılovun "Muzeylərlə interaktiv əlaqənin təşkili" mövzularında çıxışları olub.

Tədbirdə Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini Məmməd Qəribov çıxış edərək muxtar respublikamızın təhsil müəssisələrində istifadə olunan elektron tədris vəsaitləri haqqında məlumat verib.

**Əli CABBAROV**



Naxçıvan şəhərindəki Gənclər Mərkəzi

2 fevral Gənclər Günüdür

# Gəncliyə qayğı ölkənin gələcəyinə qayğıdır

*1997-ci il fevralın 1-də ulu öndər Heydər Əliyevin Sərəncamı ilə Gənclərin I Forumunun keçirildiyi gün – fevralın 2-si Azərbaycanda Gənclər Günü elan edilmişdir.*

Hər bir ölkənin gələcəyini bilmək üçün onun gəncliyinə nəzər salmaq lazımdır. Çünki gənclik davamlı inkişafın qarantıdır. Bu mənada, gəncliyin inkişafı, dünya birliyinə inteqrasiyası Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətini təşkil edir. Bu gün özünün yüksək inkişaf mərhələsini yaşayan dövlət gənclər siyasəti ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderimiz ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə sağlam düşüncəli gənc nəslin yetişdirilməsini, gənclərin ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini diqqət mərkəzində saxlamışdır. ***“Biz dövlətin və cəmiyyətin idarə edilməsində gənc nəslin qüvvəsinə arxalanacaq, onların imkanlarından maksimum istifadə edəcəyik”***, – deyən dahi rəhbərin təşəbbüsü ilə hələ Sovetlər Birliyi dövründə Azərbaycan gəncliyinin inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilmiş, milli dəyərlərə və tarixi-mədəni irsə bağlı gənc nəslin formalaşdırılmasına başlanılmışdır. O dövrdə gənclərin təhsili sahəsində həyata keçirilən tədbirlər, onların ixtisaslı kadr kimi yetişdirilməsi, xüsusilə milli hərbçi kadrların hazırlanması ölkəmizin gələcək müstəqilliyinə hesablanmışdı. Məhz ötən əsrin 70-ci illərində ulu öndərin diqqət və qayğısı nəticəsində yetişən gənclik ölkəmizin müstəqilliyinin qorunmasında və inkişafında yaxından iştirak etmişdir.

Ümummilli liderimiz müstəqillik dövründə – 1993-2003-cü illərdə ölkəmizə rəhbərliyi zamanı da gənclərlə bağlı dövlət siyasətinin əsas prinsiplərini müəyyənləşdirmiş, gənclərin ölkənin sosial-iqtisadi, ictimai-siyasi həyatında fəal iştirakının təmin olunması, onların sosial problemlərinin həlli və gələcəyin layiqli vətəndaşları kimi formalaşması üçün lazımi şərait yaratmışdır. Ayrı-ayrı dövlət təşkilatlarının gənclərlə iş sahəsindəki fəaliyyətini əlaqələndirmək üçün 1994-cü ildə Gənclər və İdman Nazirliyi yaradılmış, bu sahədə dövlət siyasətinin həyata keçirilməsi məqsədilə zəruri qanunvericilik bazası formalaşdırılmışdır. Ulu öndərin rəhbərliyi ilə ölkəmizdə “Gənclər siyasəti haqqında”, “Dövlət gənclər siyasəti haqqında”, “Bədən tərbiyəsi və idman haqqında”, “Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında” qanunlar qəbul olunmuş, bir sıra fərman və sərəncamlar imzalanmışdır. Bütün bunlar da gənc nəslin mütəşəkkil qüvvə kimi formalaşması, sosial problemlərinin həlli və məşğulluqlarının təmin olunması baxımından mühüm əhəmiyyətə malik olmuşdur.

Bu gün ölkəmizdə dövlət gənclər siyasəti keyfiyyətcə yeni mərhələyə yüksəlmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl tədbirlər nəticəsində gənclərin hərtərəfli inkişafı təmin olunmuş, onlar cəmiyyətin fəal sosial təbəqəsinə çevrilmişdir. Gənclərin idarəetmə sahəsində fəal iştirakı, gənc mütəxəssislərin yetişdirilməsi, işlə təminatı və digər sosial problemlərin həlli Azərbaycanda gənclərlə işin dövlət siyasətinin əsas istiqamətlərindən biri olduğunu təsdiq edir. Bu sahədə görülən işlərin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri öz intellektual səviyyələri, bilik və bacarıqları ilə dünyada tanınır və qəbul olunurlar. Ölkə Prezidenti cənab İlham Əliyev gənclər qarşısında mühüm vəzifələr durduğunu bildirərək demişdir: ***“Biz bu gün güclü dövlət qururuq. Biz çalışırıq ki, inkişafımız dayanıqlı olsun. Buna nail olmaq üçün, sadəcə, güclü iqtisadiyyata malik olmaq kifayət deyil. Dayanıqlı inkişaf üçün gərək gələcəkdə ölkəmizi idarə edəcək insanlar da daim dövlətçiliyə, inkişafa töhfə versinlər. Siz gənclər gələcəkdə ölkəmizi idarə edəcəksiniz. Ölkəmizin taleyi sizdən asılı olacaqdır. Ona görə sizin fəaliyyətiniz, baxışlarınız və fikirləriniz gələcəkdə ölkəmiz üçün həlledici olacaq”.***

Muxtar respublikada da dövlət gənclər siyasəti uğurla həyata keçirilir. Gənc nəslin sağlam, bilikli və vətənpərvər ruhda böyüməsi diqqət mərkəzində saxlanılır, onların cəmiyyətin bütün sahələrində fəal iştirakı təmin olunur. Son illər bu məqsədlə muxtar respublikada Gənclər Mərkəzi, elektron kitabxanalar, yeni məktəb binaları, mədəniyyət evləri, ali təhsil müəssisələri üçün yeni tədris korpusları, olimpiya-idman kompleksləri, idman mərkəzləri və digər obyektlər tikilərək gənclərin istifadəsinə verilmişdir.



İlham Əliyev adına Olimpiya-İdman Kompleksi



Naxçıvan Dövlət Universiteti

Muxtar respublikada gənclərlə iş sahəsində həyata keçirilən tədbirlərin əsasını gənclərin ictimai-siyasi, iqtisadi və mədəni həyatda fəal iştirakı, sosial problemlərinin həlli, bu sahədə müvafiq dövlət proqramlarının qəbul olunması, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə irəli çəkilməsi və onların xidmətlərinin qiymətləndirilməsi kimi mühüm tədbirlər təşkil edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında” və “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun yaradılması haqqında” fərmanları muxtar respublikada gənclərə göstərilən diqqət və qayğının davamıdır. Bu fərmanlarla Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının “Qızıl kitabı” təsis edilmişdir. Naxçıvan şəhərində Gənclər Mərkəzinin istifadəyə verilməsi gənclərin xüsusi layihələr vasitəsilə vahid bir məkanda toplanması, gənclərin inkişafı, onların asudə vaxtlarının səmərəli təşkili baxımından xüsusi əhəmiyyətə malikdir.

İdman və bədən tərbiyəsi gənc nəslin fiziki inkişafında və sağlam böyüməsində mühüm rol oynayır. Bu amil nəzərə alınaraq muxtar respublikada idmanın kütləviliyinə xüsusi diqqət yetirilir. Son illər muxtar respublikanın şəhər və rayonlarında olimpiya-idman komplekslərinin, idman mərkəzlərinin, uşaq-gənclər idman və şahmat məktəblərinin, orta məktəblərdə idman zallarının və açıq idman qurğularının istifadəyə verilməsi gənclərin hərtərəfli böyüməsinə xidmət edir. Yaradılan imkanlardan istifadə edən gənclər Azərbaycan və dünya miqyaslı yarışlarda və çempionatlarda uğurla iştirak edərək Naxçıvan idman məktəbinin adını yüksəldirlər.

Muxtar respublikada həyata keçirilən dövlət gənclər siyasətinin mühüm istiqamətlərindən birini də gənclərin sosial problemlərinin həlli, xüsusilə də mənzil şəraitinin yaxşılaşdırılması təşkil edir. Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq, 2014-cü ildə Naxçıvan şəhərində yeni yaşayış kompleksi tikilərək istifadəyə verilmişdir. Gənclərin güzəştli şərtlərlə mənzil sahibi olması yönündə işlər bu gün də uğurla davam etdirilir. Naxçıvan şəhərində 5 binadan ibarət yeni “Gənclər şəhərciyi”nin inşası bunun əyani ifadəsidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Bu gün bizim qarşımızda bir vəzifə durur: mənəviyyatca təmiz, intellektli və vətənpərvər gənclər yetişdirmək. Gənclərin bir yolu var. Bu yol ölkə Prezidenti tərəfindən uğurla davam etdirilən Heydər Əliyev yoludur. Hər bir gənc yaradılan yüksək şəraitdən və göstərilən dövlət qayğısından bəhrələnərək vətəni və xalqı üçün layiqli vətəndaş olmağa çalışmalı, üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməli və ona göstərilən etimadı doğrultmalıdır”.***

Bu gün dövlətimiz gənclərin hərtərəfli inkişafı, ən əsası vətənpərvər ruhda böyüməsi üçün bütün imkanlardan istifadə edir, etibarlı gənclik ordusu formalaşır. Ölkəmiz inkişaf etdikcə gənclərimiz üçün yaradılan şərait də, onların fəaliyyət imkanları da genişlənir. Bu da Azərbaycanın uğurlu gələcəyini təmin edən ən əsas yoldur.

***Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının, ölkənin çiçəklənməsinin rəhnidir. Bu gün böyük iftixarla demək olar ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi qoruyub yaşadır. O, daim müstəqil Azərbaycanın bu günü və gələcəyi haqqında düşünür, öz fəaliyyətində yüksək vətəndaşlıq hisslərinə malik olduğunu nümayiş etdirir.***

**Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti**

# Naxçıvanda 2 fevral – Gənclər Günü qeyd olunub

*Fevralın 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə “Duzdağ” otelində 2 fevral – Gənclər Gününə həsr olunmuş tədbir keçirilib.*

Tədbirdə Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov çıxış edərək ölkəmizdə, o cümlədən muxtar respublikada həyata keçirilən gənclər siyasətindən, bu sahədə əldə olunan nailiyyətlərdən söhbət açıb.

Bildirilib ki, müstəqil Azərbaycan Respublikasının uğurlu gənclər siyasətinin formalaşması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün dövlətin apardığı gənclər siyasəti keyfiyyətcə yeni mərhələdə davam etdirilir. Ölkə başçısı cənab İlham Əliyevin həyata keçirdiyi dövlət gənclər siyasəti nəticəsində gənclərimiz cəmiyyətimizin inkişafında fəal sosial təbəqəyə çevrilib. Son illər bu sahədə görülən işlərin, həyata keçirilən tədbirlərin nəticəsində bu gün Azərbaycan gəncləri öz intellektual səviyyələri, bilik və bacarıqları ilə nəinki regionda, ümumiyyətlə, dünyada tanınır və qəbul olunurlar.



“Muxtar respublikamızda gənclərin sağlam, vətənpərvər ruhda böyümələri, yüksək səviyyədə təhsil almaları, onların cəmiyyətin müxtəlif sahələrində fəal iştirakını təmin etmək üçün ardıcıl tədbirlər həyata keçirilir”, – deyən Azad Cabbarov qeyd edib ki, gənclərin intellektual səviyyəsinin yüksəldilməsi, dünyagörüşünün formalaşması və asudə vaxtlarının səmərəli keçirilməsi məqsədi ilə müxtəlif obyektlər tikilərək və ya əsaslı təmir olunaraq gənclərin istifadəsinə verilib.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında” 2012-ci il 31 yanvar tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının “Qızıl kitabı”nın təsis edilməsi muxtar respublikamızda gənclərə göstərilən yüksək diqqət və qayğının daha bir ifadəsidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev bildirib ki, ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş dövlət gənclər siyasəti bu gün uğurla həyata keçirilir. Son illər gənclərimizin ictimai-siyasi, iqtisadi və mədəni həyatda fəal iştirakı, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq dövlət proqramlarının uğurla reallaşması, bütövlükdə, gənclər siyasətinin həyata keçirilməsi istiqamətində görülən tədbirlərdir.

Qeyd olunub ki, indi muxtar respublikamızda gənclər milli-mənəvi dəyərlərimizə hörmət ruhunda tərbiyə olunur, yeni ideyaların təşəbbüskarı və dövlət idarəçiliyində aparıcı qüvvə kimi formalaşır və böyük nailiyyətlər əldə edirlər.

Naxçıvan Müəllimlər İnstitutunun tələbəsi Nərmin Allahyarova çıxış edərək deyib ki, bu gün muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan gənclərin inkişafı sahəsində görülən işlər sırasında onların mütaliə vərdişlərinin və dünyagörüşlərinin artırılması diqqət mərkəzində saxlanılır. O, gənclərə göstərilən diqqət və qayğıya görə muxtar respublika rəhbərinə minnətdarlığını bildirib.

Sonra səhnəyə dəvət olunan gənclərin iştirakı ilə tədbirin rəmzi olan tort kəsilib.

Daha sonra Naxçıvan Muxtar Respublikasının ictimai həyatında və yaradıcılıq sahəsində fərqlənən istedadlı yeniyetmə və gənclər təşkilatçılar tərəfindən hədiyyələrlə mükafatlandırılıblar.

Naxçıvan Musiqi Kollecinin “Gənclik” İnstrumental Ansamblının çıxışı və gənc müğənnilərin, həmçinin tanınmış muğam ustası İlkin Əhmədovun ifaları, yumor ustası Fərda Xudaverdiyevin çıxışı tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılanıb.

**Rauf ƏLİYEV**

*Qoca Şərqin qapısı sayılan Naxçıvanın tarixi keçmişi və zəngin mədəniyyəti hər zaman diqqət mərkəzində olub. Bu qədim diyar ulu tarixin müxtəlif dövrlərinə şahidlik edib, bəzən isə bu tarixin iştirakçısına çevrilərək onu yenidən yazmağı öz üzərinə götürüb. Bu baxımdan Naxçıvanın dünəni ilə tanışlıq kimliyindən, peşəsindən, cəmiyyətdə tutduğu mövqeyindən asılı olmayaraq, hər kəs üçün maraq kəsb edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli “Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında” Sərəncamı isə muxtar respublikada dövlət orqanları işçilərinin muzeylərə kollektiv gedişinin təmin olunması ilə yanaşı, həm də qədim oğuz yurdunun tarixi keçmişinin, mədəniyyətinin öyrənilməsində əhəmiyyətli rol oynayır. Sərəncama uyğun olaraq “Muzey günləri”nin davam etdirilməsi məqsədilə muxtar respublikada müxtəlif dövlət orqanlarında çalışan kollektivlər yanvarın 30-da yenidən muzeylərimizi ziyarət etdilər.*

# Muzeylər tariximizi öyrənmək üçün ən gözəl əyani vasitədir





Biz də həmin muzeylərin bir neçəsində olduq və ziyarətçilərdən təəssüratlarını bizimlə bölüşmələrini xahiş etdik. İlk müsahiblərimiz şəhərimizdəki Xatirə Muzeyini ziyarətə gəlmiş Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin əməkdaşları oldu. Nazirliyin əməkdaşı Ramin Məmmədov bildirdi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin məlum sərəncamına uyğun olaraq təşkil edilən “Muzey günləri” şəhərimizdəki muzeylərlə tanışlıq üçün əla fürsətdir. Artıq bir ildən çoxdur ki, davamlı olaraq müxtəlif muzeylərdə oluruq və qeyd edim ki, bu cür ziyarətlər zamanı xeyli məlumatlar əldə edirik. Bu gün isə Xatirə Muzeyində olduq. Hamımıza məlumdur ki, burada Vətənimizin suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş naxçıvanlıların xatirəsi əbədiləşdirilir. Muzeydə şəhidlərimizə aid müxtəlif fotoşəkillər, sənədlər, döyüşçülərin şəxsi əşyaları qorunur, eyni zamanda nümayiş etdirilir. Müxtəlif dövrlərdə xalqımıza qarşı soyqırımı həyata keçirilib. Unutmayaq ki, Sovetlər Birliyi dönəmində milli tariximizi saxtalaşdıranlar əsl həqiqəti öyrənməyimizə mane olublar. Ona görə də tarixdə baş verən hadisələrdən uzun illər xəbərimiz olmayıb. Yalnız müstəqilliyimizi əldə etdikdən sonra bu faktlarla bağlı araşdırmalar aparılıb, müxtəlif kitablar nəşr olunub. Xatirə Muzeyi xalqımızın qəhrəmanlıq səhifələri haqqında bizə kifayət qədər məlumatlar verir.

Həmin gün Naxçıvan Dövlət Tarix Muzeyi də öz ziyarətçilərini qəbul edirdi. Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin kollektivi muzeyi ziyarət etdikdən sonra idarənin bir neçə əməkdaşı ilə həmsöhbət olduq. Tapdıq Əliyev dedi: “Tariximizi öyrənmək hər birimizin ən azından vətəndaşlıq borcudur. Etiraf edək ki, əvvəllər muzeylərə o qədər də çox maraq göstərməmişik, ən azından “vaxtımız yoxdur”, – deyib, yaxamızı kənara çəkmişik. Ancaq şəhərimizdə yerləşən muzeyləri ziyarət etdikdən sonra görürük ki, bu mədəniyyət obyektlərimiz, həqiqətən də, insanları məlumatlandırmaq baxımından çox böyük əhəmiyyət daşıyır. Bu gün ziyarət etdiyimiz Naxçıvan Dövlət Tarix Muzeyi də zəngin eksponatları ilə hər birimizin marağına səbəb oldu. Muzeydə qədim dövrlərdən tutmuş müasir dövrədək ardıcıllıqla düzülmüş eksponatlar necə zəngin tarixə, mədəniyyətə malik olduğumuzu göstərir. Təbii ki, hər bir vətəndaşın da öz tarixini, mədəniyyətini bilməsi vacibdir və keçmişi bilmədən gələcəyin yolunu müəyyən edə bilmərik. Buna görə də muzeylərə kollektiv gedişləri təqdir edirəm”.

Növbəti ünvanımız Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyi oldu. Buraya ilk gələnlər Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin əməkdaşları idi. Muzeyin bələdçiləri tərəfindən onlara muzey haqda ətraflı məlumat verildi. Xidmətin əməkdaşları muzeyi ziyarətdən sonra təəssüratlarını bizimlə bölüşdülər. Əməkdaşlardan Zakir Məmmədov, Orxan Hüseynov, Şahin Nəbiyev bildirdilər ki, çoxəsrlik qiymətli əlyazmalar, tətbiqi və təsviri sənət nümunələri, qədim və müasir kitablar, qəzet və jurnallar, xatirə əşyaları və digər materiallarla tanışlıq onlara Azərbaycan ədəbiyyatı tarixi ilə bağlı dəyərli məlumat əldə etməyə imkan verib. Ekspozisiyada Azərbaycan ədəbiyyatının klassik və müasir nümayəndələrinin həyat və yaradıcılığını əks etdirən guşələrə xidmətin əməkdaşları tərəfindən xüsusi maraq göstərilib. Onlar burada Naxçıvanda yaşayıb-yaratmış şair və yazıçıların yaradıcılıqları ilə də tanış ola biliblər. Bundan başqa, teatrımızın tarixinə aid sənədlər, görkəmli sənətkarların yaradıcılığını əks etdirən fotoşəkillər xidmət əməkdaşlarında muxtar respublikamızda teatr mədəniyyətinin formalaşması haqda dolğun təəssürat yaradıb. Bütün bunlara görə muzey ziyarətlərinin təşkilatçılarına minnətdardırlar.

Naxçıvan şəhərindəki “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinin nahardan sonrakı ilk ziyarətçiləri Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin əməkdaşları idi. Kompleksi ziyarət onlarda böyük təəssürat yaratdı. Əməkdaşlardan Aftandil Vəliyev, Elnur Əsgərov, Məlahət Novruzova ilə söhbət zamanı dedilər ki, burada onlara muzey kompleksi haqda ətraflı məlumat verilib. Bu məlumatlar vasitəsilə öyrəniblər ki, “Xan Sarayı” muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 23 oktyabr tarixli Sərəncamı ilə yaradılıb. Xan sarayının binası yenidən qurulub, bu mədəniyyət müəssisəsinin fəaliyyəti üçün lazımi arxiv materialları və digər sənədlər toplanaraq muzeyə verilib. 2010-cu il dekabrın 17-də “Xan Sarayı” Dövlət Tarix-Memarlıq Muzeyinin açılışı olub. Muzeyin yaradılmasında əsas məqsəd Azərbaycanın milli dövlətçilik tarixində xüsusi yer tutan Naxçıvan xanlığının tarixinin öyrənilməsi və təbliğidir.

“Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksinin qonaqları olan Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşları da kompleksi ziyarətdən sonra onlarda yaranan təəssüratı bizimlə bölüşməyi unutmadılar. Firudin Zamanov dedi ki, burada olarkən bələdçi tərəfindən məlumat verilib ki, 2010-cu ildə Naxçıvanqalanın bərpasına başlanılıb, tarixi ərazidə yenidənqurma işləri aparılıb, qalanın əvvəlki görkəmi özünə qaytarılıb. Naxçıvanın qədim tarixi-mədəni irsinin mühafizəsini təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 5 iyun tarixli Sərəncamı ilə “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksi yaradılıb.

Həmin gün Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin, Dövlət Təhlükəsizliyi Xidmətinin, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivləri Cəlil Məmmədquluzadənin ev-muzeyini, Ədliyyə, Fövqəladə Hallar nazirliklərinin, Dövlət Gömrük Komitəsinin əməkdaşları Hüseyn Cavidin ev-muzeyini, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının, Vergilər Nazirliyinin əməkdaşları Xatirə Muzeyini, İqtisadiyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi, Nəqliyyat nazirliklərinin kollektivləri Bəhruz Kəngərli Muzeyini, Kənd Təsərrüfatı, Rabitə və Yeni Texnologiyalar, Səhiyyə nazirliklərinin əməkdaşları Cəmşid Naxçıvanskinin ev-muzeyini ziyarət ediblər. Gənclər və İdman, Mədəniyyət və Turizm nazirliklərinin kollektivləri “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin kollektivləri Naxçıvan Dövlət Xalça Muzeyində, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşları “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Dövlət Bayrağı Xidmətinin kollektivləri Ədəbiyyat Muzeyində, Dövlət Sosial Müdafiə Fondunun, Mərkəzi Seçki Komissiyasının əməkdaşları Naxçıvan Dövlət Tarix Muzeyində, Dini Qurumlarla İş üzrə İdarənin, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin, Arxiv İdarəsinin kollektivləri isə Dövlət Bayrağı Muzeyində oldular.

***Bəli, apardığımız müşahidələrdən də bir daha məlum oldu ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında” 2014-cü il 19 dekabr tarixli Sərəncamına əsasən təşkil olunan “Muzey günləri”nin keçirilməsi tarixi irsimizin öyrənilməsi baxımından əhəmiyyətli və əlamətdar hadisədir.***

**Səbuhi HƏSƏNOV**

# Doktorant və dissertantların minimum imtahanı ilk dəfə olaraq elektron qaydada keçirilib



***Naxçıvan Dövlət Universitetində 2012-ci ildən elektron imtahanların keçirilməsi tədrisdə müasir texnologiyaların tətbiqinə yüksək önəm verilməsinin ifadəsidir. Yanvar ayının 29-da ali təhsil ocağında bu sahədə daha bir ilkə imza atılıb. Belə ki, ilk dəfə olaraq Naxçıvan Dövlət Universitetində doktorant və dissertantlar informatika fənnindən elektron-test üsulu ilə minimum imtahanı veriblər.***

Qeyd edək ki, Naxçıvan Dövlət Universiteti ilə AMEA İnformasiya Texnologiyaları İnstitutu arasında əldə olunmuş razılığa əsasən, imtahanlara hazırlıq məqsədilə doktorant və dissertantlar üçün tədris ilinin əvvəlindən həftədə bir dəfə onlayn dərslər keçilib. Bu dərslərdə informatikanın nəzəri və praktik əsasları AMEA İnformasiya Texnologiyaları İnstitutunun mütəxəssisləri tərəfindən onlayn şəkildə tədris olunub, elmi fəaliyyətdə informasiya texnologiyalarından istifadə vərdişləri aşılanıb.

Məlumat üçün qeyd edək ki, 2011-ci ildən Naxçıvanda yaşayan doktorant və dissertantlar tədris olunan dərsləri məsafədən izləyirlər.

Keçirilən namizədlik minimum imtahanında 28 nəfər elmi tədqiqatçı iştirak edib. Onlara 50 sual təqdim olunub. İmtahan qaydalarına əsasən, 25 suala düzgün cavab verənlər məqbul qiymət almış olurlar. Həmin imtahanlara nəzarət etmək məqsədilə AMEA İnformasiya Texnologiyaları İnstitutunun əməkdaşları Naxçıvan Dövlət Universitetinə dəvət olunub, həmçinin imtahan prosesi sözügedən institutun rəhbərliyi tərəfindən videomüşahidə sistemi vasitəsilə də canlı olaraq izlənilib.

Elmi tədqiqatçılar yaradılan şəraitə görə minnətdarlıq edərək bildiriblər ki, əvvəllər imtahan vermək üçün Bakı şəhərinə gedirdik, indi isə Naxçıvanda bizim üçün bu şərait yaradılıb. Dərslərdən sonra imtahanların da Naxçıvanda təşkili burada təhsil alan doktorant və dissertantların ürəyincə olub.

AMEA İnformasiya Texnologiyaları İnstitutunun əməkdaşları da Naxçıvan Dövlət Universitetində yaradılan şəraiti yüksək qiymətləndiriblər.

**Mina QASIMOVA**

# Dövlət Miqrasiya Xidmətində maarifləndirici tədbir



***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində “Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi statusu” mövzusunda maarifləndirici tədbir keçirilib.***

Tədbirdə xidmətin əməkdaşlarından Rahib Kərimovun və Samir Sadiqovun çıxışları olub. Çıxışlarda iştirakçılara əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti, onların hüquqi vəziyyətinin əsasları, Azərbaycan Respublikası ərazisində müvəqqəti və ya daimi yaşamaları və müvəqqəti olmaları ilə bağlı qanunvericiliyin tələbləri, hüquqları, azadlıqları və vəzifələri haqqda ətraflı məlumat verilib.

Bildirilib ki, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikası vətəndaşları ilə bərabər bütün hüquqlardan və azadlıqlardan istifadə edirlər və bütün vəzifələri yerinə yetirirlər. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqlarının həyata keçirilməsi Azərbaycan Respublikasının milli mənafeyinə zidd olmamalıdır. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının Konstitusiyasının, qanunlarının və digər qanunvericilik aktlarının tələblərinə riayət etməli, Azərbaycan xalqının adət və ənənələrinə hörmətlə yanaşmalıdırlar. Xarici dövlət onun ərazisində Azərbaycan Respublikası vətəndaşlarının hüquq və azadlıqlarının həyata keçirilməsinə məhdudiyyət qoyduqda Azərbaycan Respublikasının qanunu ilə ölkə ərazisində eyni məhdudiyyətlər həmin dövlətin vətəndaşları üçün müəyyən edilə bilər. Belə qanun onun qəbul edilməsinə əsas olan hallar aradan qaldırıldıqda ləğv olunur. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər onların sosial və əmlak vəziyyəti, irqi və milli mənsubiyyəti, cinsi, dili, dinə münasibəti, fəaliyyətinin növü və xarakterindən və digər hallardan asılı olmayaraq, Azərbaycan Respublikasında qanun və məhkəmə qarşısında bərabərdirlər.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

**Xəbərlər şöbəsi**

# Ədliyyə Nazirliyi maarifləndirici tədbirləri davam etdirir

*Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə Şahbuz şəhərində “Bələdiyyə torpaqlarının idarə olunmasının xüsusiyyətləri” mövzusunda seminar-müşavirə keçirilib. Bələdiyyə sədrlərinin iştirak etdiyi tədbiri Şahbuz Rayon İcra Hakimiyyətinin əməkdaşı İmran Məmişov açıb.*

Sonra Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin baş məsləhətçisi, ədliyyə müşaviri Səttar Zamanov çıxış edərək “Torpaq sahəsi üzərində bələdiyyələrin mülkiyyət hüquqları” mövzusunda danışıb. Qeyd edilib ki, aparılan araşdırmaların nəticələrinə əsasən demək olar ki, bu gün də torpaqlardan istifadə və onların idarə olunmasında bəzi nöqsanlara yol verilir. Bələdiyyə üzvlərinin hüquqi biliklərinin az olması, qanunvericiliyin düzgün mənimsənilməməsi və işə laqeyd münasibət nəticəsində bələdiyyə torpaqlarının zəbt olunması, orada qanunsuz tikinti aparılması, torpaqların kateqoriyalarının qanunsuz dəyişdirilməsi faktlarına rast gəlinir.

Məlumdur ki, torpaqlardan istifadə qanunvericiliklə tənzimlənir. Başqa sözlə desək, heç kəs torpaqlardan qanunsuz istifadə edə, qeydə alınmış torpaq sahəsindən kənara çıxa, ümumi istifadədə olan yolu zəbt edə bilməz.

Sonra nazirliyin Qanunvericilik şöbəsinin rəisi, ədliyyə müşaviri Ayaz Məhərrəmov “Bələdiyyə mülkiyyətində olan torpaqların icarəyə verilməsi ilə bağlı qanunvericiliyin tələbləri və məsuliyyət” mövzusunda çıxış edib.

Sonda mövzular ətrafında müzakirələr aparılıb, iştirakçılara “Bələdiyyələrin statusu: hüquq və vəzifələr” adlı kitab paylanılıb.

**Şəhla NƏBİYEVA**

# Gənc idmançılar “Koroğlunun Çənlibelə qayıdışı” tamaşasına baxıblar





***Yanvarın 29-da Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyasının məşqçi-müəllim heyətinin və idmançılarının iştirakı ilə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında tədbir keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Gənc idmançıların vətənpərvərlik ruhunun yüksəldilməsi, onların asudə vaxtının səmərəli keçirilməsi məqsədilə təşkil edilən tədbiri Naxçıvan Muxtar Respublikası daxili işlər nazirinin müavini, polis general-mayoru Səbuhi Novruzov açıb.

Nazirliyin Kadrlar şöbəsinin rəisi, polis mayoru Tahir Həsənov çıxış edərək bildirib ki, muxtar respublikamızda digər sahələr kimi, idman və bədən tərbiyəsinin inkişafı da daim diqqət mərkəzində saxlanılır. Görülən işlərin nəticəsidir ki, ötən dövr ərzində muxtar respublikada olimpiya-idman kompleksləri, müxtəlif idman qurğuları, uşaq idman məktəbləri tikilərək və ya yenidən qurularaq istifadəyə verilib. Yaradılmış şəraitdən Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyasının idmançıları da yararlanıb və ötən dövr ərzində uğurlu nəticələr əldə ediblər. Qeyd olunub ki, federasiyanın tərkibində 5 idman klubu (taekvando, kikboksinq, budakan, karate-do və MMA qaydasız döyüş növü) və 15 nəfərdən ibarət hakim kollegiyası fəaliyyət göstərir. 400-dən artıq idmançını özündə birləşdirən federasiyada 8 yerli və Bakı şəhərindən dəvət olunmuş 3 təcrübəli məşqçi-müəllim fəaliyyət göstərir. Həmin məşqçi-müəllimlər gənc idmançıların psixoloji, fiziki və texniki hazırlıqlarının yüksəldilməsində mühüm rol oynayır.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyası yarandığı gündən bu günədək 80 yarış keçirib, qalib komandalar və idmançılar müvafiq diplom, kubok və hədiyyələrlə mükafatlandırılıblar. Ötən dövrdə idmançılar Avropa, Asiya və dünya çempionatlarında layiqincə təmsil olunub, onlardan 16 nəfəri Avropa, 2 nəfəri Asiya, 15 nəfəri dünya çempionu, 5 nəfəri isə beynəlxalq turnirlərin qalibi adlarına layiq görülüblər. Beynəlxalq turnirlərdə iştirak edən idmançılardan 6 nəfəri qızıl medal qazanıb.

Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyasının sədr müavini Cavanşir Salayev 2016-cı il yanvarın 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr” barədə keçirilən müşavirədə qarşıya qoyulmuş tapşırıqların həyata keçirilməsində federasiyanın fəaliyyətindən danışıb, gənc idmançıların asudə vaxtlarının səmərəli keçirilməsində bu cür tədbirlərin əhəmiyyətindən bəhs edib.

Sonra tədbir iştirakçıları “Koroğlunun Çənlibelə qayıdışı” tamaşasına baxıblar.

Qeyd edək ki, tamaşada ölkəmizin təlatümlər, təhlükələr içərisində, daxili çəkişmələr, xarici təsirlər nəticəsində dağılmaq üzrə olduğu bir vaxtda xalqın təkidli tələbi ilə görkəmli dövlət xadimi Heydər Əliyevin Bakıya, ikinci dəfə ali hakimiyyətə qayıdışından bəhs olunur.

**Səbuhi HƏSƏNOV**

*Sağlam həyat*

## İdman sağlam həyat tərzini təmin edən ən gözəl vasitədir

***Sağlam gəncliyin formalaşması aparılan düzgün siyasətin nəticəsidir. Bu gün Azərbaycan gəncinin yüksək pillələrdə özünə yer tapması məhz bunun bariz nümunəsidir. Gənclərin idman sahəsinə marağının artırılması ölkəmizdə ön planda duran əsas məsələlərdəndir. İdman sağlam həyat tərzini insan üçün sığorta edən ən gözəl vasitədir. Məhz bu amili nəzərə alıb qəzetimizin bu sayından etibarən sağlam həyat tərzinin formalaşdırılması ilə bağlı yazıları oxucularımıza təqdim edəcəyik.***

İnsan ilk olaraq öz sağlamlığını qorumalı, özü özünün həkimi olmalıdır. Bunun üçün çox da ciddi işlər görmək tələb olunmur: sadəcə, gün ərzində 30-50 dəqiqəlik məşq həyatımızda böyük dəyişikliklərə səbəb ola bilər. İdman edən və etməyən insanları müqayisə etdikdə maraqlı faktlarla qarşılaşırıq. İdmanla məşğul olmağın ən böyük üstünlüklərindən biri ürəyi möhkəmləndirmək, yüksəlmiş qan təzyiqini nəzarətdə saxlamaqdır. İdman hərəkətləri qanda olan təhlükəli trombların sorulmasına kömək edir və orqanizmin qocalmasının qarşısını alır. Lakin bu hal idman etməyən insanlarda çox nadir hallarda baş verir. Passiv həyat tərzi keçirənlər aktiv hərəkətlər etmədikcə, oksigen hər bir hüceyrəyə daxil olmur, nəticədə, daxili üzvlərdə tənəffüs aktivləşmir, dəri təravətlənmir, qan dövranı pisləşir.

Yaş fərqindən asılı olmayaraq, insan idmanla məşğul olarkən əzələləri tonuslanır. Bu da fiziki hazırlıq almış oynaqların yüksək hərəkətlər etməsinə səbəb olur. Əks təqdirdə, insan ideal olmayan çəkiyə “sahiblənir” və artıq çəki onun həyat aktivliyini azaldır.

Oturaq həyat tərzi keçirən və idmanla məşğul olmayanlardan fərqli olaraq, hobbi kimi olsa belə, idmana üstünlük verən, idmanla məşğul olan insanlarda ehtiyat qüvvələri artaraq xroniki yorğunluğu aradan qaldırır. Bu zaman beyində əlavə oksigen ehtiyatı yaranır ki, bu da bütün gün ərzində insanı enerjili edir. Bununla bərabər, idman hərəkətlərinə görə insan iştahasını da nəzarətdə saxlayır.

Daim hərəkətdə olmamaq dərin və sakit yuxu əldə edilməsinə maneçilik törədir, gün ərzində toplanmış sinir gərginliyindən insan uzaqlaşa bilmir. İdmanla məşğul olmamaq gün ərzində fiziki olaraq qeyri-aktiv insan tipi formalaşdırır. Ancaq idman insanda motivasiya yaradır və yuxusuzluğu dəf etməyə kömək edir. Çünki bu zaman orqanizmdə adrenalin və stress əmələ gətirən digər hormonların artıqlığı azalmış olur.

İdmanla məşğul olmayan insanda öz gücünə inam həmişə az olub. Bu, insanın əhval-ruhiyyəsinə və xarici görünüşünə də mənfi təsir göstərir. Hərəkətsizlik maddələr mübadiləsini və bağırsaqların peristaltikasını (hərəkət) stimulyasiya etmir. Məhz buna görə idmanla məşğul olmayanlar siqareti atmaqda hər zaman çətinlik çəkirlər. Siqaret aludəçilərinin qanında əlavə oksigen toplanmır və o, mütəmadi olaraq azalır.

Araşdırmalardan sonra məlum olub ki, yaxşı fiziki hazırlıq, idmanla məşğul olmaq insanı ən ağır cərrahi əməliyyatlar zamanı belə, qoruyur. Hobbi kimi idmanla məşğul olmaq belə, keçirilmiş ağır xəstəliklərdən, cərrahi əməliyyatlardan tez sağalmağa kömək edir. Bu zaman güclü əzələlərin oksigeni mənimsəmək qabiliyyəti yüksək olur, nə qədər çox oksigen alsalar, orqan və toxumaların funksiyasının bərpası da bir o qədər tez gedir. Məhz buna görə bəzi cərrahi əməliyyatlardan öncə xəstələrə xüsusi idman hərəkətləri etdirilir.

İdmanla gün ərzində məşğul olmaq fiziki gərginliyi aradan qaldırmaqla yanaşı, insan orqanizmində müəyyən problemlərin də həllində müstəsna rol oynayır. Özünü idmana məcbur edənlərdə zaman keçdikcə bu, adət halını alır. İdmanla məşğul olmayanların, işlədiyi işi bəhanə edərək vaxt azlığından gileylənənlərin 60 faizdən çoxu 40 yaş həddindən sonra bu sahəyə maraq göstərməyə başlayırlar. Lakin nisbətən gənc yaşlarında əldə olunacaq sağlamlıqlarından məhrum olanların bu yaşda idmana maraq göstərməsi onların orqanizmlərində müəyyən ağrılara səbəb olur. Bu yaşdan sonra ən ideal idman isə yürüş və yüngül atletikadır. Bədəndə artıq yağların əriməsi, orqanizmin rahatlaşması üçün ideal variantdan başlamaq məqsədəuyğundur.

**Ceyhun MƏMMƏDOV**

## Elan

Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyası 6-18 yaşlı oğlan uşaqlarını, həmçinin 6-15 yaşlı qız uşaqlarını Naxçıvan şəhərində və muxtar respublikanın bütün rayonlarında təşkil olunmuş karate məşğələlərinə dəvət edir.

Məşqlər peşəkar müəllimlər və vaxtaşırı Bakı şəhərindən dəvət olunan karate mütəxəssisləri tərəfindən keçiriləcək.

Fərqlənən idmançılar ölkədaxili yarışlarda iştirak etməklə yanaşı, beynəlxalq turnirlərə və kəmər yarışlarına cəlb olunacaqlar.

**Ünvanlar:**

***Naxçıvan şəhəri üzrə***

*İlham Əliyev adına Olimpiya-İdman Kompleksi;*

*Naxçıvan Muxtar Respublika Stadionunun idman zalı.*

*Əlaqə telefonu: 051-324-44-22*

***Şərur rayonu üzrə***

*Olimpiya-İdman Kompleksi;*

*Çomaxtur kənd tam orta məktəbinin idman zalı;*

*Düdəngə kənd tam orta məktəbinin idman zalı.*

*Əlaqə telefonu: 051-802-16-03*

***Babək rayonu üzrə***

*Babək qəsəbə tam orta məktəbinin idman zalı;*

*Nehrəm kənd 1 nömrəli tam orta məktəbin idman zalı.*

*Əlaqə telefonu: 070-245-18-86*

***Ordubad rayonu üzrə***

*Ordubad şəhər 3 nömrəli tam orta məktəbin idman zalı;*

*Xanağa kənd tam orta məktəbinin idman zalı.*

*Əlaqə telefonu: 050-534-12-66*

***Culfa rayonu üzrə***

*Əlincə kənd tam orta məktəbinin idman zalı.*

*Əlaqə telefonu: 070-268-19-98*

***Kəngərli rayonu üzrə***

*Qıvraq qəsəbə tam orta məktəbinin idman zalı.*

*Əlaqə telefonu: 050-628-70-73*

***Şahbuz rayonu üzrə***

*Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin idman zalı.*

*Əlaqə telefonu: 051-841-22-12*

***Sədərək rayonu üzrə***

*Sədərək kənd 2 nömrəli tam orta məktəbin idman zalı.*

*Əlaqə telefonu: 070-345-85-85*

***karate@karate-naxcivan.az***
***karate-naxcivan.az***

*Azərbaycan Respublikası, o cümlədən Naxçıvan Muxtar Respublikası ilə həmsərhəd olan ölkələrdə “donuz qripi”nə (A/H1N1)*

## A/H1N1 qrip virusu xəstəliyinə qarşı qabaqlayıcı tədbirlər davam etdirilir

*görə epidemioloji vəziyyətin kəskin ağırlaşması ilə əlaqədar olaraq zəruri qabaqlayıcı tədbirlərin həyata keçirilməsi, tibb işçiləri və əhali arasında geniş səhiyyə maarifi işlərinin aparılması davam etdirilir.*

Muxtar respublika ərazisində “donuz qripi” virusu ilə bağlı təhlükəli hala rast gəlinməsə də, bu xəstəliyə qarşı profilaktik tədbirlərin gücləndirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən hazırlanmış tədbirlər planı hələ ötən il dekabrın 24-də muxtar respublikanın bütün şəhər və rayon tibb müəssisələrinə paylanmışdır. Tədbirlər planına əsasən, Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında və bütün rayon mərkəzi xəstəxanalarında çalışan pediatrlar, terapevtlərin, həkim ambulatoriyalarında, feldşer-mama məntəqələrində işləyən sahə tibb işçilərinin, məktəb və məktəbəqədər uşaq müəssisələrinin tibb bacılarının və ərazi Gigiyena və Epidemiologiya mərkəzlərinin həkim-epidemioloq, epidemioloq köməkçiləri, dezinfektor təlimatçılarının iştirakı ilə geniş elmi-praktik seminarlar keçirilmişdir. Seminarlarda tibb işçilərinə qrip xəstəliyinin etio-patogenezi, epidemiologiyası, klinika, laborator diaqnostikası, müalicə və profilaktikası haqqında ətraflı məlumat verilmişdir. Tədbirin keçirilməsində məqsəd sahə tibb işçiləri tərəfindən ev gəzintilərinin intensivliyinin artırılması, qrip xəstəliyinə bənzər əlamətlər olan hallarda həmin xəstələrin və xəstələrlə təmasda olan, onlara qulluq göstərən şəxslərin tibbi nəzarətdə saxlanılması, məktəb və məktəbəqədər müəssisələrin tibb bacıları tərəfindən məktəb və bağçaların girişində tibbi müşahidənin aparılması, uşaqlar, müəllimlər, tərbiyəçilər və başqalarında qrip xəstəliyinə şübhəli hal aşkar olunduqda dərhal sağlam kollektivdən təcrid olunaraq evdə ambulator müalicəyə cəlb olunmasından ibarətdir. Həmçinin tibb bacılarına kəskin xəstəlik əlamətləri olan şəxslərin stasionar şəraitdə həkim nəzarəti altında müalicə almaları, ehtiyac olduğu halda Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinə köçürülməsi tapşırığı verilmişdir. Xəstəliyin profilaktikası məqsədilə Səhiyyə Nazirliyi tərəfindən hazırlanmış yaddaş vərəqələrinin əhali arasında paylanması təmin edilmişdir. Gigiyena və Epidemiologiya mərkəzləri tərəfindən məktəb və məktəbəqədər uşaq müəssisələrində, ictimai iaşə obyektlərində, əhalinin daha sıx olduğu ictimai yerlərdə, məişət tullantısı meydançalarında dezinfeksiya tədbirlərinin aparılması intensiv xarakter almışdır. Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzində və rayon mərkəzi xəstəxanalarının yoluxucu xəstəliklər şöbələrində bu məqsədlə lazımi palatalar hazırlanmış, dərman preparatları ilə təchiz edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## İdman obyektlərində dezinfeksiya işləri aparılır

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Səhiyyə Nazirliyinin birgə tədbirlər planına uyğun olaraq, Naxçıvan şəhərində fəaliyyət göstərən idman obyektlərində dezinfeksiya işləri aparılıb.

Gənclər və İdman Nazirliyi Aparatının Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov bizimlə söhbətdə bildirdi ki, nazirlik idmançıların sağlamlığı üçün hər ay belə tədbirlər həyata keçirir, idman obyektləri, zalları dezinfeksiya olunur. Bu işlər tək Naxçıvan şəhərində yox, muxtar respublikanın bütün rayonlarında aparılır.

Dezinfeksiya işləri Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində, Naxçıvan Muxtar Respublika Stadionunda və İslam Hümbətov adına Uşaq-Gənclər İdman Məktəbində, Şərur Olimpiya-İdman Kompleksində və digər idman məktəblərində aparılıb.

**Xəbərlər şöbəsi**

***İtmişdir***

Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, bina 4, mənzil 13-də yaşayan Vəliyeva Rüxsarə Nəriman qızının adına olan evin 14580 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 90